UOT 327

ŞAHİSMAYIL İSMAYILOV
Azərbaycan Dillər Universiteti,
Azərbaycan Universiteti,
Bakı Slavyan Universiteti
tarix üzrə fəlsəfə doktoru, dosent
ismayilovsahismayil@gmail.com

AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ ELM, TƏHSİL VƏ MƏDƏNİYYƏTİN İNKİŞAFININ TARİXİ ƏHƏMİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/110/114-120

Məqalədə Azərbaycan-Türkiyə əlaqələrinin formalaşmasında və möhkəmlənməsində elm, təhsil və mədəniyyətin tarixi rolu araşdırılır. İki ölkə xalqlarını bir-birinə daha da yaxınlaşdıran əsas amillər kimi təhsil və elm əlaqələrinin, eləcə də mədəni mübadilənin qarşılıqlı təsirinə xüsusi diqqət yetirilir. Tarixi əməkdaşlığın əsas mərhələləri, o cümlədən birgə layihələr, tələbə və alim mübadiləsi, eyni zamanda ümumi şəxsiyyətin formalaşmasına töhfə verən mədəni təşəbbüslər təhlil edilir. Göstərilir ki, elm, təhsil və mədəniyyətin inkişafı ikitərəfli diplomatiyanın mühüm elementi olmaqla yanaşı, həm də müasir dünyada Azərbaycan və Türkiyə arasında davamlı strateji tərəfdaşlığın əsasına çevrilib.

Açar sözlər: Azərbaycan, Türkiyə, elm, təhsil, mədəniyyət, tarixi əməkdaşlıq, mədəni mübadilə, strateji tərəfdaşlıq.

Giriş. Azərbaycan və Türkiyə arasında münasibətlər tarix boyu qardaşlıq, ortaq mədəniyyət və dil birliyi üzərində qurulmuşdur. "Bir millət, iki dövlət" prinsipi bu əlaqələrin təməl fəlsəfəsini təşkil edir. Bu münasibətlər yalnız siyasi və iqtisadi sahələrdə deyil, eyni zamanda elm, təhsil və mədəniyyət kimi strateji əhəmiyyət kəsb edən sahələrdə də dərin və sistemli şəkildə inkişaf etdirilmişdir. XX əsrin sonlarından başlayaraq, xüsusilə Azərbaycanın müstəqillik qazanmasından sonra, bu istiqamətlərdə əməkdaşlıq keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Böyük türk mütəfəkkiri Mustafa Kamal paşa Atatürk mədəniyyət, mənəviyyat və ana dili sahəsində həm nəzəri, həm də təcrübə qazanılması yolunda zəngin bir irs yaratmışdır. Heydər Əliyev demişdir: «Mustafa Kamal Atatürk bütün dünyaya sübut etmişdir ki, müsəlman ölkəsində, əsrlər boyu dinin təsiri altında dini dövlət kimi yaşayan bir ölkədə cümhuriyyət, layiq cümhuriyyət qurmaq, demokratik yolla getmək olar» [1, s.6].

Azərbaycan – Türkiyə mədəni əlaqələrinin tarixi və perspektivləri ilə bağlı hər iki dövlətin rəhbərləri dəfələrlə fikirlər söyləmiş və bu əlaqələrin daimi və əbədi olacağı haqqında bəyanatlar vermişlər. Xalqımızın ümummilli lideri Heydər Əliyev bəyan edirdi ki, "dəfələrlə dediyimiz "biz bir millət, iki dövlətik" sözləri hər bir azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır". Çıxışlarında daima türk dünyası problemlərinə qlobal düşüncə tərzi ilə yanaşan Heydər Əliyev həmişə belə bir ideya vermişdir ki, "Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar [2, s.8].

XX əsrin son onilliyinin əvvəlində SSRİ-nin dağılması zəminində türkdilli xalqlardan beşi öz müstəqil dövlətlərini yaratmağa imkan tapdılar və türk dünyası xeyli gücləndi. Dövlət müstəqilliyini qazanmış Azərbaycanda prezident Heydər Əliyev ilk növbədə tarix dərsliklərinin yenidən yazılmasını qarşıya qoydu və ilk növbədə ən mühüm vəzifə kimi orta məktəblər üçün tarix dərsliklərinin təcili olaraq yazılması lüzumu ortaya çıxdı: bir qrup tarixçilərimiz bu işə qoşuldular və müəyyən uğurlar əhlə edildi. Lakin Azərbaycanın həm XIX-XX əsrlər tarixinin, həm də ən qədim dövrdən başlayaraq əsaslı elmi tarixinin yazılmasında ləngimək qüsuru tamamilə aradan qaldırılmamışdır [1, s.9].

Azərbaycan və Türkiyə arasında elm sahəsində əməkdaşlıq son illərdə intensiv şəkildə inkişaf edir və bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Hər iki ölkə ortaq tarixi, mədəni və mənəvi köklərə əsaslanaraq elm, texnologiya və innovasiya sahəsində əməkdaşlığı dərinləşdirməkdə

maraqlıdır. Bu münasibətlər sadəcə rəsmi səviyyədə deyil, həm də elmi-tədqiqat müəssisələri, universitetlər və fondlar arasında da geniş şəkildə həyata keçirilir.

İlk əməkdaşlıq addımları 1990-cı illərdən başlayaraq atılıb. 1992-ci ildə Bakı şəhərində Azərbaycan və Türkiyə arasında təhsil və elm sahəsində əməkdaşlığı nəzərdə tutan niyyət protokolu imzalanıb. Daha sonra bu əlaqələr 1994-cü ildə Ankarada bağlanmış elmi-texnoloji və mədəni əməkdaşlıq protokolu ilə davam etdirilib. 1995–1997-ci illərdə isə iki ölkə arasında ali təhsildə diplomların tanınması, elmi-təhsil mübadiləsi və digər sahələrdə bir sıra sənədlər imzalanıb. Bu sənədlər iki ölkənin elm sahəsindəki inteqrasiyasını daha da gücləndirib.

1992-ci ilin 22 martında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Prezidenti Turqut Özalın və Baş Nazir Süleyman Dəmirəlin xüsusi dəvəti ilə Türkiyəyə rəsmi səfərə yola düşmüşdür. Ankarada olarkən Heydər Əliyev Türkiyə Cümhuriyyətinin ilk Prezidenti Mustafa Kamal Atatürkün və Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından olan Məhəmməd Əmin Rəsulzadənin qəbirlərinə əklillər qoymuşdur. Martın 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasının maliyyə, iqtisadi və texniki yardım gösərilməsi barədə, o cümlədən Naxçıvana 100 milyon dollar məbləğində kredit ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə əməkdaşlıq protokolunu imzalamışdır. "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti Arasında əməkdaşlıq Protokolu"nda bildirilirdi ki, Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1992-ci il martın 22-dən 24-dək Türkiyəni ziyarət etmişdir. Bu ziyarət zamanı təşkil edilmiş görüşlərdə, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında mövcud dostluq, əməkdaşlıq və yaxşı qonşuluq müqaviləsi, iki ölkə xarici işlər nazirlikləri arasındakı protokolu və Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasındakı tarixi və mədəni qardaşlıq əlaqələri göz önünə alınaraq hər sahədə daha yaxşı əməkdaşlıq təşkil edilməsi məqsədi ilə aşağıdakı xüsuslarda razılığa gəlinmişdir: [3, s.31].

1. TRT İdarəsinin televiziya verilişlərinin Naxçıvan Respublikasında rahatca seyr edilə biləcək vəziyyətə gətirilməsi üçün Türkiyə tərəfi lazımi tədbirləri sürətlə həyata keçirəcəkdir. Ayrıca Naxçıvan tərəfindən tələb edildikdə TRT İdarəsi xüsusi proqramlar verəcək.

2. Turizm sahəsində Naxçıvan Muxtar Respublikasının imkanlarının dəyərləndirilməsi üçün təsis edilən kredit çərçivəsində mehmanxana inşası daxil olmaqla gərəkli kömək və texniki kömək Türkiyə Cümhuriyyəti hökuməti tərəfindən yerinə yetiriləcək.

3. Naxçıvan Muxtar Respublikasındakı mədəni həyatın inkişafına kömək etmək üçün Türkiyə Cümhuriyyəti, mətbəə təmini də daxil olmaqla mətbuat avadanlıqlarının ehtiyaca görə təminini həyata keçirəcək.

4. Naxçıvan Muxtar Respublikasından 100 tələbənin təhsili Türkiyə Cümhuriyyəti tərəfindən təmin ediləcək.

5. Bütün əməkdaşlıq layihələrinin koordinasiya və icra edilməsindən Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyi ilə iqtisadi, mədəni, maarif və texniki əməkdaşlıq idarəsi sədrliyi məsul olacaq [3, s.33].

Elm sahəsində ən mühüm tərəfdaşlıq qurumlarından biri Türkiyə Elmi və Texnoloji Araşdırma Şurası – TÜBİTAK ilə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasındakı əməkdaşlıqdır. 2022-ci ildən etibarən bu əməkdaşlıq daha da aktiv fazaya keçib. 2024-cü ilin əvvəlində AMEA-nın binasında "AMEA–TÜBİTAK Koordinasiya Mərkəzi"nin açılması bu istiqamətdə mühüm bir addım oldu. Bu mərkəz ortaq elmi layihələrin həyata keçirilməsi, müştərək tədqiqatlar, konfranslar və mübadilə proqramlarının təşkili üçün yeni imkanlar yaratdı.

Bununla yanaşı, Türk Dövlətləri Təşkilatı və onun nəzdində fəaliyyət göstərən Turkic Academy vasitəsilə də Azərbaycan və Türkiyə arasında elmi əməkdaşlıq genişlənməkdədir. Bu çərçivədə türkdilli ölkələrin ortaq elmi layihələri, konfranslar və simpoziumları təşkil edilir. Eyni zamanda, Eurasian Universities Union (EURAS) kimi təşkilatlar da iki ölkə arasında universitetlərarası əlaqələrin inkişafına töhfə verir.

Son illərdə atılan mühüm addımlardan biri də 2024-cü ildə Bakıda təsis olunmuş Türkiyə-Azərbaycan Universitetidir. Bu universitet Azərbaycan Texniki Universiteti ilə Türkiyənin aparıcı universitetləri – Orta Doğu Texniki Universiteti (ODTÜ), İstanbul Texniki Universiteti (İTÜ) və Ha-

cettepe Universiteti arasında əməkdaşlıq əsasında qurulub. Burada kompüter mühəndisliyi, sənaye mühəndisliyi və qida mühəndisliyi kimi sahələr üzrə təhsil proqramları təklif olunur. Tədris türk və ingilis dillərində aparılır. Universitetin məqsədi hər iki ölkənin gənclərinə beynəlxalq standartlara uyğun təhsil imkanları təqdim etməkdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu ilə TÜBİTAK arasında imzalanmış əməkdaşlıq protokolları çərçivəsində birgə elmi layihələrə dəstək verilir, o cümlədən birgə elmi müsabiqələr təşkil olunur. Eyni zamanda, "Azercosmos" ilə TÜBİTAK Kosmos Texnologiyaları Araşdırmaları İnstitutu arasında da anlaşma memorandumu imzalanıb. Bu sənəd iki ölkə arasında kosmos texnologiyaları və peyk rabitəsi sahəsində birgə layihələrin icrasına şərait yaradır (Bayraktar).

Maraqlı və strateji əməkdaşlıq istiqamətlərindən biri də müdafiə sənayesi və yüksək texnologiyalardır. 2023-cü ildə KAAN döyüş təyyarəsi layihəsində Azərbaycanın texnoloji tərəfdaş kimi iştirakı ilə bağlı protokol imzalanıb. Bu protokola əsasən, Azərbaycanın bəzi texnoloji sistemləri layihəyə daxil edilib və birgə istehsal imkanları yaradılıb. Bundan başqa, 2024-cü ilin ADEX sərgisində Türkiyənin ASELSAN şirkəti ilə Azərbaycan arasında ASELFLIR‑500 və TOLUN sistemlərinin texnologiya transferi və istifadəsinə dair razılaşma əldə olunub. Baykar Technology Azerbaijan şirkəti isə pilotsuz uçuş aparatlarının araşdırılması və istehsalı sahəsində fəal rol oynayır.

Beləliklə, Azərbaycan–Türkiyə arasında elm sahəsində əməkdaşlıq çoxşaxəli və strateji xarakter daşıyır. Bu əməkdaşlıq yalnız akademik sahə ilə məhdudlaşmır, həm də yüksək texnologiya, sənaye, kosmos və müdafiə sahələrində özünü göstərir. Gələcək illərdə bu əlaqələrin daha da dərinləşəcəyi və türk dünyasının elmi inteqrasiyasına ciddi töhfələr verəcəyi gözlənilir.

Azərbaycan–Türkiyə münasibətlərində təhsil məsələlərinin tarixi əhəmiyyəti, iki qardaş ölkə arasındakı münasibətlərin ən mühüm istiqamətlərindən birini təşkil edir. Bu sahədə əməkdaşlıq yalnız təhsil mühitində qarşılıqlı faydalı proseslərin baş verməsi ilə məhdudlaşmır, eyni zamanda milli kimlik, mədəni bağlar, strateji tərəfdaşlıq və gələcək nəsillərin yetişdirilməsi baxımından da xüsusi yer tutur.

SSRİ-nin dağılmasından sonra, 1990-cı illərin əvvəllərində Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdə, Türkiyə bu müstəqilliyi tanıyan ilk dövlət oldu. İki ölkə arasında diplomatik əlaqələrin qurulması ilə bərabər, təhsil sahəsində də mühüm addımlar atılmağa başlandı. 1990-cı il sentyabrın 19-da imzalanan mədəni və elmi mübadilə protokolları, gələcək əməkdaşlığın əsasını qoydu. Artıq 1992-ci ildə Azərbaycan hökuməti tərəfindən 320 yuxarı sinif şagirdi Türkiyəyə litsey təhsili üçün göndərildi. 1995-ci ilə qədər bu say sürətlə artdı və 1,853 tələbə Türkiyədə müxtəlif ali və orta ixtisas təhsil müəssisələrinə qəbul edildi.

Bu dövrdə həyata keçirilən ən mühüm layihələrdən biri də 1993-cü ildə yaradılan Qafqaz Universiteti oldu. Universitet həm Azərbaycan, həm də Türkiyə pedaqoji potensialının birləşdirilməsi ilə formalaşmış və beynəlxalq səviyyədə kadr hazırlığına yönəlmişdi. Bununla yanaşı, "Böyük Tələbə Layihəsi" çərçivəsində yüzlərlə azərbaycanlı gənc Türkiyənin nüfuzlu universitetlərinə göndərildi. 1998-ci ilə qədər yalnız dövlət xətti ilə Türkiyəyə gələn tələbələrin sayı 2,570-ə çatdı ki, bunlardan 1,101 nəfəri təqaüdlə təmin olunmuşdu.

1999-cu il isə əməkdaşlığın institusional baxımdan gücləndiyi bir mərhələ oldu. Həmin il təhsil nazirlərinin görüşündə diplomların qarşılıqlı tanınması məsələsi gündəmə gətirildi və bu istiqamətdə Birgə Komissiya yaradılması qərara alındı. Eyni zamanda, Türkiyədə baş verən zəlzələdən sonra Azərbaycan məktəblərinin təmiri və təhsil infrastrukturunun bərpası üçün dəstək göstərildi.

2000-ci illərdə Azərbaycan–Türkiyə təhsil əlaqələri daha da intensivləşdi. Bu dövrdə həm ali, həm də peşə təhsili sahəsində yeni protokollar imzalandı. İki ölkə arasında tələbə və müəllim mübadiləsi genişləndi, ortaq elmi layihələr həyata keçirildi. 2017-ci ildə ali təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanaraq universitetlərarası birgə proqramlar üçün hüquqi baza formalaşdırıldı. Bundan başqa, peşə təhsili istiqamətində də əlaqələr gücləndi. 2021-ci ildə imzalanan Protokol əsasında Azərbaycanda Türkiyə təcrübəsinə əsaslanan peşə məktəblərinin yaradılması planlaşdırıldı.

Azərbaycan–Türkiyə təhsil əməkdaşlığının ən yeni mərhələsi 2024-cü ildə Bakı şəhərində təsis olunan Türkiye-Azerbaijan University ilə başladı. Azərbaycan Texniki Universiteti və Türkiyənin

Orta Doğu Texniki Universiteti, İstanbul Texniki Universiteti, Hacettepe Universiteti kimi aparıcı təhsil qurumlarının birgə layihəsi olan bu universitetdə dərslər türk və ingilis dillərində aparılır. İlk mərhələdə 86 tələbə qəbul olunmuşdur. Universitetin əsas məqsədi strateji sahələrdə yüksək ixtisaslı kadrların hazırlanmasıdır.

Bu əməkdaşlığın tarixi əhəmiyyəti bir neçə əsas istiqamətdə özünü göstərir. İlk növbədə, iki ölkə arasında kadr potensialının inkişafına, elmi-tədqiqat mühitinin zənginləşməsinə və diplomların qarşılıqlı tanınmasına şərait yaradır. İkincisi, "Bir millət, iki dövlət" fəlsəfəsi əsasında gənc nəsildə milli-mədəni dəyərlərin möhkəmlənməsinə xidmət edir. Üçüncüsü isə, təhsil sahəsində strateji əməkdaşlıq gələcəkdə texnologiya, elm və innovasiya sahələrində birgə layihələrin həyata keçirilməsi üçün möhkəm zəmin formalaşdırır.

Beləliklə, Azərbaycan–Türkiyə münasibətlərində təhsil məsələləri sadəcə iki ölkə arasında elmi və akademik əlaqələrin inkişafı deyil, həm də tarixi, mədəni və strateji bir missiyanın daşıyıcısıdır. Bu əlaqələr keçmişdən gələcəyə uzanan qardaşlıq bağlarının ən güclü təzahürlərindən biri olaraq qalmaqdadır.

Azərbaycan–Türkiyə münasibətlərində mədəniyyət məsələlərinin tarixi əhəmiyyəti iki dövlət arasındakı qardaşlıq bağlarının ən dərin və davamlı sütunlarından biridir. Bu münasibətlər tarixi köklərə əsaslanır, lakin müasir dövrdə strateji tərəfdaşlıq konsepsiyası ilə birləşərək həm regional, həm də beynəlxalq miqyasda xüsusi rol oynayır. Mədəniyyət sahəsində əməkdaşlıq yalnız incəsənət və ədəbiyyat mübadiləsi deyil, həm də ortaq kimlik, milli yaddaş, dil birliyi və mənəvi dəyərlərin qorunması baxımından strateji əhəmiyyətə malikdir.

Müstəqillikdən sonra yeni mərhələ (1991–1994).

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən dərhal sonra Türkiyə bu müstəqilliyi tanıyan ilk dövlət oldu. Diplomatik münasibətlərin qurulması ilə paralel şəkildə mədəniyyət sahəsində əməkdaşlıq gündəmə gətirildi. 1992-ci ilin noyabrında Azərbaycan və Türkiyə arasında mədəniyyət və ekspert hazırlığı sahələrində əməkdaşlıq protokolu imzalandı. Bu sənəd iki ölkə arasında mədəniyyət mübadiləsini hüquqi baxımdan rəsmiləşdirdi və gələcək layihələr üçün baza yaratdı.

Həmin dövrdə xüsusilə media sahəsində əməkdaşlıq ön plana çıxdı. TRT ilə Azərbaycan televiziyası arasında proqram mübadiləsi başlandı, "AVRASYA-TV" layihəsi fəaliyyətə başladı. Bu, həm informasiya axınının qarşılıqlı olmasına, həm də hər iki ölkənin ictimaiyyətinin bir-birini daha yaxından tanımasına şərait yaratdı. Media vasitəsilə mədəniyyətin geniş kütlələrə çatdırılması həm də diplomatik münasibətlərin xalq səviyyəsində möhkəmlənməsinə kömək etdi.

TÜRKSOY və ortaq mədəni irsin dirçəldilməsi (1993–2000)

1993-cü ildə yaradılan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY Azərbaycan–Türkiyə mədəni əlaqələrinin daha böyük bir məkanda – türk dünyası çərçivəsində inkişafına imkan yaratdı. TÜRKSOY vasitəsilə iki ölkə onlarla beynəlxalq tədbirin təşkilində aparıcı rol oynadı.

Bu tədbirlər sırasında Füzulinin 500 illiyi, Kitabi-Dədə Qorqudun 1300 illiyi, Nəsiminin yubileyi kimi mərasimlər xüsusi yer tutur. Bu yubileylər yalnız ədəbiyyat və sənət xadimlərinin anılması deyildi; onlar türk dünyasının ortaq dəyərlərinin, tarixi yaddaşının və mənəvi bağlarının möhkəmləndirilməsi üçün ideoloji məna daşıyırdı.

Məhz bu dövrdə mədəniyyət sahəsində "ortaq kök" anlayışı sistemli şəkildə təbliğ olunmağa başladı. İki ölkənin mədəniyyət nazirləri, incəsənət xadimləri və alimləri TÜRKSOY çərçivəsində mütəmadi görüşlər keçirərək gələcək layihələrin planını hazırlayırdılar.

Mədəni əməkdaşlığın hüquqi-institusional bazası (2000–2010)

2000-ci illərdən etibarən Azərbaycan–Türkiyə mədəni əlaqələri artıq tək-tük tədbirlər səviyyəsindən çıxaraq sistemli əməkdaşlıq mərhələsinə qədəm qoydu. Bu illərdə bir sıra mədəniyyət protokolları və sazişləri imzalandı.

Əməkdaşlıq istiqamətləri bunlar idi:

•Kitabxana və arxiv işi: Milli Kitabxana ilə Türkiyə Milli Kitabxanası arasında müqavilələr imzalandı, nadir əlyazmaların rəqəmsallaşdırılması və mübadiləsi həyata keçirildi.

•Muzey işi: Azərbaycan Milli İncəsənət Muzeyi, Tarix Muzeyi və digər mədəniyyət müəssisələri Türkiyənin Topkapı Sarayı, Anadolu Sivilizasiyaları Muzeyi kimi qurumlarla sərgi layihələri gerçəkləşdirdi.

•Teatr və kino: Birgə tamaşalar səhnələşdirildi, ortaq filmlər çəkildi. "Dədə Qorqud" mövzulu teatr layihələri və tarixi filmlər bu dövrdə aktuallaşdı.

•Qeyri-maddi irs: Aşıq sənəti, xalçaçılıq və muğam kimi dəyərlərin qorunması istiqamətində UNESCO ilə birgə işlər aparıldı.

2000–2010-cu illərdə keçirilən "Azərbaycan Mədəniyyət Günləri" və "Türkiyə Mədəniyyət Günləri" artıq ənənə halını aldı. Bu tədbirlər həm paytaxtlarda, həm də bölgələrdə təşkil olunurdu.

2010-cu illərdən sonra Azərbaycan–Türkiyə mədəni əlaqələri strateji tərəfdaşlıq konsepsiyası çərçivəsində yeni məna qazandı. Xüsusilə 2020-ci ildə 44 günlük Vətən müharibəsindən sonra iki ölkənin mədəni inteqrasiyası daha intensiv hala gəldi. Qarabağ Zəfəri ilə bağlı sənədli filmlər, musiqi əsərləri, sərgilər və teatr tamaşaları hazırlandı. Bu əsərlər həm Azərbaycanın, həm də Türkiyənin milli qürurunu əks etdirirdi.

2021-ci ildən başlayaraq mədəni layihələr yalnız paytaxtlarda deyil, azad edilmiş Qarabağ torpaqlarında da həyata keçirilməyə başladı. Şuşada təşkil olunan "Xarıbülbül" Musiqi Festivalında Türkiyə sənətkarlarının iştirakı iki ölkə mədəniyyətinin birliyinin rəmzinə çevrildi.

2023-cü ilin noyabrında Ankarada imzalanan yeni mədəni əməkdaşlıq sazişi bu münasibətlərin gələcək inkişafı üçün daha geniş imkanlar açdı. Saziş teatr, kino, muzey işi, folklor, kitab nəşri, mədəni irs abidələrinin bərpası, sənətkar mübadiləsi kimi sahələri əhatə edir.

Azərbaycan–Türkiyə münasibətlərində mədəniyyətin tarixi əhəmiyyətini bir neçə aspektdə qiymətləndirmək olar:

1.Milli kimlik və ortaq yaddaş: Hər iki xalq eyni tarixi köklərə, dilə və mədəniyyətə malikdir. Bu, mədəni əməkdaşlığı sadəcə dostluq jesti deyil, milli varlığın qorunması vasitəsinə çevirir.

2.Yumşaq güc siyasəti: Birgə festivallar, sərgilər, konsertlər iki ölkənin beynəlxalq imicini gücləndirir və regional sabitlikdə mədəni diplomatiyanın rolunu artırır.

3.Regional liderlik: Azərbaycan və Türkiyə türk dünyasında mədəni inteqrasiyanın aparıcı qüvvələridir. TÜRKSOY və digər platformalarda birgə çıxış etmələri bütün türk dövlətləri üçün nümunədir.

4.İqtisadi və turizm potensialı: Mədəni layihələr eyni zamanda turizmin inkişafına təkan verir, iqtisadi əlaqələri də möhkəmləndirir.

Son illərdə Azərbaycan – Türkiyə elmi-mədəni əlaqələrinin getdikcə daha genişlənməsində elmi konfransların əhəmiyyəti daha çox nəzərə çarpır. Bu sahədəki çoxsaylı örnəklər içərisində bir neçə mühümlərini sadalamaqla fikirlərimizi təsdiqləməyə çalışaq. Məsələn, internet vasitəsilə yayınlanan bir məlumatda bildirilir: Ege Üniversitetinin quruluşunun 50-ci ildönümü münasibətilə Türk Dünyasındaki dil, tarih, kültür araştırmalarını tanımak ve tanıtmak, ilgili bilim quruluşları ve elm adamları arasında əməkdaşlığa nail olmaq, yeni araştırmalarla məlumat dairəmizi zənginləşdirmek məqsədilə, Ege Üniversitetinin Türk Dünyası Araşdırmaları İnstitutu tərəfindən, 09-15 aprel 2006 tarixleri arasında, "Türk Dünyası'nda dil, edebiyat, halk bilimi, tarih, coğrafya, antropoloji, uluslararası əlaqələr, kültür vb." məsələlərin müzakirə ediləcəyi beynəlxalq mədəniyyət qurultayı keçiriləcəkdir. Bu qurultayda iştirak etməyi arzu edən elm adamlarının, öz tədqiqat sahələrində Türk Dünyasının aktual problemlərinin həllinə yönəlmiş, nəzəri və metodik baxımdan müstəqil elmi tədqiqatlarını fərqli ölkələrdən gələn elm adamları ilə bölüşmələrini arzu etməkdəyik [4].

Türk Dünyası Yazıçılarının 6 noyabr 1996-cı ildə keçirilmiş III Qurultayında Azərbaycan Prezidenti Heydər Əliyev öz nitqində bildirmişdir ki, türkdilli xalqlar qədim, çoxəsrlik tarixi boyu Avrasiya qitəsinin böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişlər. Qədim tarix boyu türkdilli xalqların həyatı cürbəcür, bəzən xalqların varlığını təhlükə altına alan müharibələrlə, döyüşlərlə, təcavüzlərlə rastlaşmışdır. Ancaq xalqlarımızın darin kökləri, bir-birinə mənəvi bağlılığı onları bütün bu mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxarmış və bugünkü günlərə gətirib çatdırmışdır. Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik [5, s.93].

Azərbaycan – Türkiyə mədəni əlaqələri tarixinə teatr sənəti baxımdan ümumi nəzər salanda görürük ki, 1960-cı illərdən başlayaraq Azərbaycan teatrının Türkiyə dramaturgiyasına marağı xeyli artmışdır. Bu dövrdən etibarən Azərbaycan teatrlarının repertuarlarında nazim Hikmətlə yanaşı orxan Kamalın, Əziz Nesinin, Rəşad Nuri Güntəkinin, Turan Ofzanoğlunun və başqa türk yazarlarının əsər-

ləri də görünməyə başladı [6, s.119]. 1989-cu ilin oktyabr ayında Azərbaycan Elmlər Akademiyası nümayəndə heyətinin Türkiyəyə səfəri isə olduqca işgüzar xarakter daşımışdı. 1990-cı il noyabrın 3-də İstanbulda dünyanın Azərbaycan ictimai təşkilatlarının birinci milli konqresi açıldı. Həmvətənlərimizin yaşadıqları bir çox ölkələrdən Azərbaycan mərkəzlərinin, cəmiyyətlərinin nümayəndə heyətləri konqresə gəlmişdilər. Azərbaycanın yaradıcılıq və ictimai təşkilatlarının nümayəndələri də bu konqresdə fəal iştirak etmişdilər. Səfəri Azərbaycanın xaricdəki həmvətənlərlə Mədəni Əlaqə Cəmiyyəti ("Vətən cəmiyyəti") təşkil etmişdi. Konqresə yola düşərkən Azərbaycan nümayəndə heyətinin rəhbəri, respublika Elmlər Akademiyası ədəbiyyat, dil və incəsənət şöbəsinin akademik katibi B.Ə.Nəbiyev müsahibəsində demişdir: "Konqresdə Azərbaycanı görkəmli ictimai xadimlər, ədiblər, bəstəkarlar, rejissorlar, alimlər, jurnalistlər, habelə bir çox siyasi hərəkatların fəalları təmsil edəcəklər. Konqresin işində iştirak edəcək digər nümayəndə heyətləri ilə birlikdə biz ümumi problemləri müzakirə etməli, Azərbaycan xalqının gələcək inkişafının vahid konsepsiyasını hazırlamalı, müxtəlif ölkələrdən Azərbaycan mərkəzlərinin və cmiyyətlərinin səylərini birləşdirmək yollarını müəyyən etməli və beləliklə, dünyanı xalqımızın tarixi, mədəniyyəti, ənənələri və bugünkü həyatı ilə daha fəal tanış etməliyik. Nəhayət bunun da əhəmiyyəti az deyil ki, konqres harada yaşadıqlarından asılı olmayaraq bütün azərbaycanlıların özlərini vahid qədim vətənin övladları olduqlarını hiss etməsinə kömək etməli, Vətənin tərəqqisi və rifahı naminə əlindən gələni əsirgəməməlidir" [6, s.149].

Qonşu ölkənin Azərbaycandan kitab və əsərlər sifariş edən elmi idarələrin miqdarının artırılması; kitab mübadiləsinin ekvivalentliyinin təkmilləşdirilməsi, alınan və verilən ədəbiyyatın miqdarının çoxaldılması; beynəlxalq kitab mübadiləsinin əhəmiyyətinin artırılması, iqtisadi, elmi və mədəni nailiyyətlərin bu yolla geniş təbliğinin təmin edilməsi [2, s.183].

Alimlərimizin əsərlərinin Türkiyədə yayılmasını və rəğbətlə qarşılanmasını başqa misallardan da aydın görmək olar. Belə ki, Türkiyə ilə respublikamızın ictimai elmlər üzrə də əlaqələri diqqəti cəlb edirdi. YUNESKO-nun üzvü olan Azərbaycan tarixi muzeyi Türkiyənin milli muzeyləri və elmi ictimaiyyəti ilə müxtəlif formalarda əlaqə saxlayırdı. AMEA-nın Şərqşünasliq institutunun kollektivi "Türk filologiyası məsələləri" monoqrafiyasını nəşr etdirdi. İnstitutun şərq xalqlarının ictimai-fəlsəfi fikrini tədqiq edən şöbəsi "Müasir türk sosiologiyası", "Müasir Türkiyənin inkişaf yolları haqqında türk iqtisadçıları və sosioloqlarının fikirləri" və b. qiymətli əsərlər yaratdılar. İnstitutun şərq dilləri şöbəsi isə "Türkcə-azərbaycanca lügət" tərtib etdi. Ədəbiyyatşünaslarımız tərəfindən Y.Kamalın və b. həyat və yaradıcılığı təhlil edildi. İnstitut akademiyanın əsaslı kitabxanası vasitəsilə Türkiyənin Ankara universiteti ilə kitab, habelə elmi materialların fotosurətləri mübadiləsini aparırdı. Ankara universitetinin professoru K.Akyuz və bir sıra türk şair, yazıçı və jurnalistləri Bakıda Şərqşünaslıq institutunun fəaliyyəti ilə ətraflı tanış oldular [7, s.50-51].

Nəticə. XX yüzilin sonlarına doğru dünyanın siyasi xəritəsində yeni türk dövlətlərinin yaranması siyasi, iqtisadi münasibətlərlə yanaşı, mədəni əlaqələri də intensivləşdirdi. Nailiyyətlərin daha çox məhz mədəniyyət və incəsənət sahələrində əldə olunması təsadüfi deyil. Dili, dini, tarixi kökləri, adət-ənənələri bir olan xalqların qarşılıqlı münasibətləri uzun müddət əngəllənsə də, yeni mərhələdə bu tendensiya dərhal aradan qalxdı. Müstəqilliyin ilk illərində yeni yaranmış türk dövlətlərinin Türkiyə ilə münasibətlərində obyektiv və subyektiv amillərdən qaynaqlanan ehtiyatlılıq hiss olunurdusa, bu, mədəniyyət əlaqələrinin dirçəlişinə şamil edilməməlidir. Türkiyə təbii istəkdən irəli gələn mədəniyyətlərin yaxınlaşması, ümumtürk dəyərlərinin yenidən dirçəldilməsi, sovet elm, təhsil və mədəniyyət sisteminin müasir standartlarla yeniləşməsi, müstəqil dövlətlərin yeni ixtisaslı kadrlarla təmin edilməsi məqsədilə bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirdi. Məqsədyönlü fəaliyyət proqramları nəticəsində bütöv Türk Dünyasının mədəni inteqrasiyasında tamamilə yeni, lakin təbii təməllərə, xalqlarımızın tarixi və millimənəvi dəyərlərinə bağlı olan bir mədəni mənzərə müşahidə edilməyə başlandı. Dünyada gedən qloballaşma, qarşılıqlı əlaqələrin intensivləşməsi fonunda türk ölkələri arasında mədəni inteqrasiyanın əsası qoyuldu [2, s.281].

ƏDƏBİYYAT

1. Prof. İsrafil İsmayılov. Azərbaycan - Türkiyə mədəni əlaqələri XX əsrdə. Bakı, 2004, 154 s.
2. Fərqanə Hüseynova. Müstəqillik dövründə Azərbaycan – Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət). Bakı, 2007, 302 s.

3. Azərbaycan – Türkiyə əlaqələri və Heydər Əliyev (1-ci kitab), 1991- 2001. Bakı, Qafqaz Universiteti Nəşri, 2002, 180 s.
4. www.basbakanlik. (Türkiye Başbakanlığı)
5. Türk Dünyası Yazıçılarının III Qurultayında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi (6 noyabr 1996-cı il). Dirçəliş – XXI əsr, 2003 (dekabr), № 12 (70), s. 92-98.
6. Kərimov İ. Azərbaycan – Türkiyə teatr əlaqələri. Bakı, Nağıl evi, 2000, 202 s
7. Abdullayev M. Azərbaycan – Türkiyə əlaqələri. Bakı, Mütərcim, 1998, 112 s.

ШАХИСМАИЛ ИСМАИЛОВ
Азербайджанский университет языков,
Азербайджанский университет, Бакинский славянский университет
Доктор философии по истории, доцент

ИСТОРИЧЕСКОЕ ЗНАЧЕНИЕ РАЗВИТИЯ НАУКИ, ОБРАЗОВАНИЯ И КУЛЬТУРЫ В АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИХ ОТНОШЕНИЯХ

В статье рассматривается историческое значение науки, образования и культуры в становлении и укреплении азербайджано-турецких отношений. Особое значение придаётся взаимодействию образования и научного сотрудничества, а также культурному обмену как основным факторам, сближающим народы двух стран. Анализируются важные этапы исторического сотрудничества – совместные проекты, взаимный обмен студентами и учёными, а также культурные инициативы, способствующие формированию общей идентичности. Отмечается, что развитие науки, образования и культуры является не только важной составляющей двусторонней дипломатии, но и составляет основу устойчивого стратегического партнёрства между Азербайджаном и Турцией в современную эпоху.

Ключевые слова: Азербайджан, Турция, наука, образование, культура, историческое сотрудничество, культурный обмен, стратегическое партнерство.

SHAHISMAYIL ISMAYİLOV
Azerbaijan University of Languages,
Azerbaijan University, Baku Slavic University
Doctor of Philosophy in History, Associate Professor

HISTORICAL SIGNIFICANCE OF THE DEVELOPMENT OF SCIENCE, EDUCATION AND CULTURE IN AZERBAIJANI-TURKISH RELATIONS

The article examines the historical significance of science, education and culture in the establishment and strengthening of Azerbaijani-Turkish relations. Particular importance is attached to the interaction of education and scientific cooperation, as well as cultural exchange as the main factors bringing the peoples of the two countries closer together. Important stages of historical cooperation are analyzed - joint projects, mutual exchange of students and scientists, as well as cultural initiatives that contribute to the formation of a common identity. It is noted that the development of science, education and culture is not only an important component of bilateral diplomacy, but also forms the basis of a sustainable strategic partnership between Azerbaijan and Türkiye in the modern era.

Keywords: Azerbaijan, Türkiye, science, education, culture, historical cooperation, cultural exchange, strategic partnership

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 iyul 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Habil Məmmədov, t.e.d. İsmayıl Məmmədov.